**1 «и» kurs. Ədəbiyyat.**

**Mövzu: İmadəddin Nəsiminin həyat və yaradıcılığı. “İki cahan” qəzəli.**

İmadəddin Nəsimi Azərbaycan ədəbiyyatında mütəfəkkir şair,həm də hürufi şair kimi taninmışdır. O, 1369-cu ildə Şamaxıda Seyid Məhəmmədin ailəsində anadan olmuşdur. Əsl adı Seyid Əlidir.Yaxşı təhsil almış, qədim şərq ədəbiyyatını, fəlsəfəni, astronomiyani və başqa elmləri mükəmməl öyrənmişdir. Ərəb, fars və türk dillərini öyrənmişdir. Sonra o hürufi şair Fəzlullah Nəimi ilə tanış olmuş, onun təriqətini, hürufiliyi qəbul etmişdir. “Nəsimi” təxəllüsünu də onun adına uyğun götürmüşdür.Hürufilərin fikrincə insan Allahın yaratdıqlarının ən şərəflisidir və onda çox sirrlər gizlədilmişdir. “Qurani-Kərim” 28 hərflə yazılmışdır. Onlar bu hərfləri(hüruf-hərflər deməkdir) müxtəlif cür məlalandırır, dünlanın sirrlərini bu hərflərlə izah edirdilər. Məs: “Həqq mənəm, həqq məndədir, həqq söylərəm”, deyirdilər. Yəni Allah insanı özünə oxşar yaratmışdır, həqq mənəm, həqq məndədir- Allah məndədir deməkdir.Hürufililərin başçısı Fəzlullah Nəimi 1401-ci ildə Naxçıvanın Əlincə qalasında Əmir Teymur tərəfindən çarmıxa çəkilir. Onun vəsiyyəti ilə şagirdləri dağılırlar. Nəsimi də təqiblərdən qaçaraq İraqda, Türkiyədə, Suriyədə yaşamalı olmuşdur. 1417-ci ildə Suriyanın Hələb şəhərində tutulmuş və edam edilmişdir. Deyilənlərə görə diri-diri dərisi soyulmuş və çarmıxa çəkilmişdir.Qəbri Hələb şəhərindədir.

**Yaradıcılığı.** Ərəb, fars və türk dillərində şerlər divanı vardır.

Qəzəl

Məndə sığar iki cahan, mən bu cahana sığmazam.

Gövhəri laməkan mənəm, kövnü məkanə sığmazam.

Ərşlə fər şü Kafü nun məndə bulundu cümlə çun,

Kəs sözünü və əbsəm ol, şərhü-bəyanə sığmazam.

Kövnü məkandır ayətim, zati dürür bidayətim,

Sən bu nişanla bil məni, bil ki, nişanə sığmazam.

Kimsə gümanə zənn ilə olmadı həqq ilə biliş,

Həqqi bilən bilir ki, mən, zənnü-gümanə sığmazam.

Gərçi bu gün Nəsimiyəm, haşimiyəm, qüreyşiyəm,

Məndən uludur ayətim, ayətə-şanə sığmazam.